

# Səfirlikdə və sinaqoqda terror – İranın mesajı və Nadir şahın almazı

## *Tehran rejimi Azərbaycan və İsrailə qarşı*

**Tehranda Azərbaycan səfirliyinə hücumla İsraildə dini məbədə - sinaqoqa hücumun eyni gündə yaşanması düşünməyə əsas verir ki, bunlar heç də təsadüf deyil. Mesaj kifayət qədər aydındır. Azərbaycanın ərazi bütövlüyünə, İsrailin isə dininə, yəni yəhudiliyə qəsd.**

Terrorun Yerusəlimdə həyata keçirilməsi də mesajdır. Axı, bu şəhər yəhudiliyin əsas iqamətgahı sayılır. Tehranda bu baxımdan rəmzi məna yoxdur. Sadəcə olaraq, Azərbaycan səfirliyi orada yerləşir. Hərçənd, şəhərin səfirlik qətliamına şahidlik tarixi var. 1829-cu ildə Rusiya səfiri Aleksandr Qribayedovla birlikdə diplomatik missiyanın 40-dək əməkdaşının öldürülməsini vurğulaya bilərik. Birincinin tikə-tikə edilib tanınmaz hala salınmasını da, həmçinin.

Yeri gəlmişkən, həmin vaxt 1828-ci ildə Rus-İran müharibəsindən qalib ayrılmış Rusiyanın yeni müharibə başlamamaq üçün İrandan aldığı təzminat Nadir şahın Hindistan səfərindən gətirdiyi bahalı almaz olmuşdu. Bəs, indi Tehran nə ödəməlidir? Daha doğrusu, ona nə ödətdiriləmlidir?

Nəzərə alaq ki, terrorçunun məqsədi Azərbaycan səfirliyini tamamilə qırıb-çatmaq idi. Eynilə 1829-cu ildə Rusiya səfirliyindəki qətliam kimi. O zaman bunun qarşısını kəsən olmadı. İndi mühafizəçinin məharəti faciənin miqyasının böyüməsinə mane oldu. Sinaqoqdakı terror aktında ölüm sayı isə 8-dir, 10 nəfər xəsarət alıb. Deməli, orada dramatizm yaşanıb, təşkilatçılar “istəklərinə” çatıblar.

İran həmişə anti-İsrail ovqatı nümayiş etdirib. Heç kəsə sirr deyil ki, İsrailə nifrət İslam Respublikasının rəsmi ideologiyasının məğzini təşkil edir. İran dövləti məhz bunun üzərində qərarlaşmış idarəçilik aparatıdır. İsrailə nifrət, Qərbə zillət püskürtüləri bu aparatın varlıq simvolu, ayaqda qalma şərtidir.

Neçə illərdir ki, bu idarəçilik aparatı insanların beyinlərini anti-insani baxışlarla doldurmaqdadır. Artıq İranda bu ideologiyanın təsirinə düşənlərin sayı azalıb. Molla rejimi əleyhinə kütləvi etiraz dalğası onu göstərir ki, əhali rejimin üzündəki müqəddəslik maskasını cırıb atmaqdadır.

İranda illərdir müqəddəs kimi təqdim edilənlərə həqarət yağdırılır. Nə üçün? Səbəb çox sadədir. Oradakı rejim insan hüquq və azadlıqlarına düşmən kəsilib. Bu sistem azadlıqları boğduqca, nəfəsliyi qapatdıqca, onun müqəddəsliyi kimi təqdim edilən məsələlər təhqirə məruz qalacaqdır. Baxın, müxtəlif video-görüntülərdə küçədə hərəkət edən din xadiminin başından əmmamənin vurulub salınması səhnələri yer alır.

Məsələ heç də onda deyil ki, hörmətsizlik və ədəbsizlik təsiri bağışlayan bu əməli törədənlər özlərini apara bilmirlər. Sadəcə, bu adamlar müqəddəs adı ilə təqdim olunan saxtakarlığın onların hüquq və azadlıqları üzərindəki demarşına sərt reaksiya verirlər. Bu gün əmmamə atılacaq, sabah saqqal qırxılacaq. Bütün rejimlərə insanlığın hiddəti əxlaq baxımından adekvat olmayıb. Ancaq nəzərə alaq ki, bu qeyri-adekvatlıqda ilahi qanunauyğunluq var. Axı İranın fars molla rejimi hər zaman bütün əxlaq və davranış normalarını aşan təmayülə malik olub.

Müsəlman dini məbədi sayılan məscidlərdə donuz saxlayan Ermənistanla qardaşlıq edən İran üçün din adına bəşəri mahiyyət daşıyan heç bir dəyər yoxdur. Bu mənada sinaqoqa hücumun ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirildiyi ehtimalı da aktuallaşmaqdadır. Necə ki, Tehrandakı səfirliyimizə hücumun həmin xüsusi xidmət orqanlarından ən mühümü sayılan – SEPAH-ın əli ilə törədildiyi ehtimalı böyükdür.

Nəzərə alaq ki, hücumu törədən şəxsin məhz bu qurumla əlaqədə olduğuna dair fikirlər formalaşıb. Caninin avtomat silahla son dərəcə mahir davranması da onu deməyə əsas verir ki, adam sıradan biri deyil, kifayət qədər hazırlıqlıdır. İsraildə sinaqoqa hücum da son dərəcə ciddi hazırlanmış, ölçülüb-biçilib həyata keçirilmiş dəhşətli terror aktıdır. Bəli, Tehranda Azərbaycan səfirliyinə, Yerusəlimdə dini məbədə hücum İran rejiminin Azərbaycan və İsrailə qarşı qeyri-rəsmi elan etdiyi müharibədir, alçaq və namərd davranış xəttidir. Bunu düşünmək üçün əsaslar çoxdur. Onlardan söz açaq.




“Sionistlər Azərbaycanda xərçəngvari kök salıblar. Onların Azərbaycanı İslam dünyasından ayırmaq cəhdi, öz kəşfiyyat və casusluq şəbəkəsi yaratmaq səyləri, habelə “Pegasus” casus proqramı vasitəsilə Azərbaycan vətəndaşlarının və jurnalistlərinin telefon danışıqlarını dinləməsi ölkə xalqının İsrailə dərin nifrətinin əsas səbəblərindəndir”. Bu yaramaz fikirlər SEPAH-a məxsus “Tasnimnews” saytında ötən ilin aprelində yayımlanmış məqalədə yer alıb. İsrailin Qarabağda yenidənqurma layihələri adı altında Azərbaycanda yerləşdirildiyinin iddia olunduğu məqalədə bunun İrana qarşı yönəldiyi vurğulanmış, mövcud xüsusda ölkəmizə təhdid mesajı ünvanlanmış, Bakıya xəbərdarlıq edilmişdi: “Azərbaycan Prezidentinin İshaq Herzoqa (İsrail prezidenti nəzərdə tutulur – red.) məktub ünvanlayaraq Azərbaycan xalqı adından İsrailə başsağlığı verdiyi və ya öz şəxsi hisslərini ifadə etməsi aydın deyil”.

İranla əlbir olan Ermənistanın saytları ötən ilin sonlarına doğru yazırdılar ki, Prezident İlham Əliyevin diplomatiyası İsraildəki erməni diasporunun fəaliyyətini iflic edib. Bu, həqiqətən də belədir. Azərbaycan Milli Məclisinin 2022-ci ilin noyabrın 18-də İsrailin paytaxtı Tel-Əvivdə ölkəmizin səfirliyinin açılması ilə bağlı tarixi qərarı isə həm İranda, həm də Ermənistanda sanki barıt çəlləyini ildırımın vurması effektini yaratmışdı. Məlumdur ki, artıq bu dost ölkəyə səfir təyinatı da gerçəkləşib.

Ümumən, onu da vurğulayaq ki, Azərbaycanla İsrail illərdir beynəlxalq platformalarda müştərək olsalar da, bu ölkənin Azərbaycana dəstəyi necə əlahiddə məzmun qazansa da, Bakının Tel-Əvivdə ali diplomatik təmsilçiliyinin olmaması müsbət mənzərənin tamamlanmasına imkan vermirdi. Bunu ötən ilin dekabrında APA-ya müsahibəsində ölkənin Azərbaycandakı ali təmsilçisi – səfir Corc Dik də vurğulamışdı: “Düşünürəm ki, münasibətlərimizin dərinliyi ilə təmsilçilik səviyyəsi arasında böyük uyğunsuzluq var idi. Nəhayət, indi səfirlik açılacaq. Ümid edirəm, qarşıdakı aylarda səfirliyin fəaliyyətə başlaması ilə münasibətlərimizin dərinliyi və təmsilçilik səviyyəsi arasında uyğunluq yaranacaq. Ona görə də buna çox sevindik, çünki bunu çoxdan gözləyirdik”.

Bəli, proseslər Azərbaycan-İsrail münasibətlərinin daha da dərinləşməsinə doğru gedir. Bu baxımdan səfir Dikin haqqında söz açdığımız müsahibəsində səsləndirdiyi fikirlər xüsusilə əhəmiyyətlidir. O bildirmişdi ki, Azərbaycanın İsraildə səfirliyinin açılması hər iki xalqın dostluq mesajının, həm ölkələrin hökumətlərinə, həm də ictimaiyyətinə çatması baxımından əhəmiyyətlidir. Səfirin üzərində durduğu növbəti məqam da müstəsna önəm daşımaqda idi. Onun sözlərindən hasil olan qənaət bu idi ki, Azərbaycanın İsraildə səfirlik açması İsrailin müsəlman dünyası ilə təmasının genişləndirməsi anlamı daşıyır.

Deməli, bir yəhudi dövləti kimi, İsrail üçün müsəlman dünyasında xoş qarşılanmaq vacibdir. Və deməli, ölkə bununla İran tərəfindən ona qarşı yaradılmış antipatiyanı məhv etmək yolu tutur. Prosesdə başlıca rolu isə Azərbaycan oynayır. “Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Onu da anlayırıq ki, Azərbaycan ona hədə-qorxu gəlməkdən çəkinməyən qonşularla, özünün müstəqilliyinə və ya ərazi bütövlüyünə açıq və ya üstüörtülü təhdidlər səsləndirən ölkələrlə çətin bir qonşuluqda yaşayır. Biz dost kimi hər hansı qüvvələrdən tərəfdaşımız Azərbaycana yönələ biləcək təhlükənin qarşısını almaq üçün onu gücləndirmək istiqamətində hər şeyi edəcəyik. İki ölkə arasında təhlükəsizlik sahəsində tərəfdaşlıq haqqında deyə biləcəyim bu qədərdir”.

Səfir Dik məlum müsahibəsində bu fikirləri də dilə gətirmişdi. Ən əsası isə o bildimişdi ki, İsraillə Azərbaycan arasındakı münasibətlər siyasətdən kənardır. Bu, qarşılıqlı əlaqələrin əlahiddə statusunun vurğulanmasına dair son dərəcə mühüm və tarixi mesaj idi. Nəzərə alaq ki, Tehranda səfirliyimizə terror hücumundan dərhal sonra da Corc Dik Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə görüşmüş, ona başsağlığı diləklərini çatdırmışdı. Bu da xüsusi əhəmiyyət daşıyan mesajdır. Daim Azərbaycanın yanında olmaq mesajı.

Ümumiləşdirmə aparıb əvvəldə söylədiyimiz fikrə qayıdaraq bir daha bildirək ki, Yerusəlimdə sinaqoqa hücum yəhudiliyə, İranın paytaxtındakı ali diplomatik missiyamıza hücum isə Azərbaycanın ərazi bütövlüyünə qəsd anlamı daşıyırdı. Hər iki mənfur akt İran rejiminin Cənubi Qafqazdakı Azərbaycan–İsrail əməkdaşlıq tandeminə ünvanlanmış mesajıdır. Əgər Bakıya “ölkənizin içərisinə daxil olub hər kəsi məhv edərik” demək istənilibsə, Təl-Əvivə söz “yəhudiliyin Azərbaycan üzərindən müsəlman aləmi ilə münasibətlərinə icazə verməyəcəyik” şəklində çatdırılır. Tehran bu əməlinə görə cavab verməlidir. Mollalara Nadir şah dövründən qalmış bahalı ləl-cəvahirat daha kömək etməyəcək.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**